

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 61 (23.703)

7 aprel 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik

## Rəsmi xronika



Aprelin 6-da Ümumdünya Səhiyyə Təşkilatının İsveçrənin Cenevrə şəhərində yerləşən mənzil qərargahında təşkilatın Baş direktoru Tedros Adhanom Qebreyesusun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videomüraciəti təqdim olunub.

Qeyd edək ki, tədbirdə 4 ölkənin dövlət və hökumət başçısının videomüraciəti yayımlanıb. Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan COVID-19 pandemiyasına qarşı qlobal səyləri səfərbər edən ilk ölkələrdən biri olub. Bizim təşəbbüsümüzlə 2020-ci ilin aprelində Türk Şurasının Zirvə toplantısı, 2020-ci ilin mayında Qoşulmama Hərəkatının Zirvə toplantısı və 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilib. Azərbaycan öz beynəlxalq məsuliyyətinə sadiq olaraq Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə yardımı ayırıb. Biz həmçinin 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımı göstərmişik.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycan peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək BMT-nin İnsan Hüquqları Şurasında "Koronavirus pandemiyası ilə mübarizədə bütün ölkələrin peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığının təmin edilməsi" adlı qətnamə layihəsi irəli sürüb. Qətnamə bu il martın 23-də konsensus əsasında qəbul edilib.

Prezident İlham Əliyev videomüraciətində vurğulayıb ki, Azərbaycan həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub.

## "Ödənişlərin onlayn və POS-terminallarla qəbulu" mövzusunda tədbir keçirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və "Naxçıvan" Universitetinin birgə təşkilatçılığı ilə "Ödənişlərin onlayn və POS-terminallarla qəbulu" mövzusunda tədbir keçirilib. "Naxçıvan" Universitetinin prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu tədbiri giriş sözü ilə açıb. Qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 9 avqust tarixli Sərəncamı ilə "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram" təsdiq edilib. Dövlət proqramına uyğun olaraq keçirilən tədbirlərdə müəllim və tələbələrə rəqəmsal ödəniş xidmətləri haqqında zəruri biliklərin verilməsi və onların nağdsız qaydada əməliyyatların aparılmasına təşviq edilməsi istiqamətində aidiyyəti dövlət orqanı ilə birlikdə maarifləndirici görüşlər keçirilir.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov bildirib ki, 1 mart 2021-ci il tarixə muxtar respublikada 1429 POS-terminal aparatı quraşdırılıb. 2021-ci ilin yanvar və fevral aylarında nağdsız ödənişlərin həcmi 17 milyon 764 min 265 manata çatdırılıb. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 6 milyon 450 min 133 manat çoxdur. Həmçinin vətəndaşların nağdsız ödənişlərə marağının daha da artırılması məqsədilə ildə iki dəfə olmaqla, "Nağdsız ödəyin, hədiyyə qazanın!" adı ilə həvəsləndirici tədbirlər keçirilir. Bu günə kimi keçirilən 14 tirajda 3857 muxtar respublika sakininə 240 min manat dəyərində müxtəlif hədiyyələr təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin Vergiödəyicilərinə xidmət şöbəsinin rəisi Elçin Babayev bildirib ki, muxtar respublikada əksər müəssisə və təşkilatlarda, təhsil, səhiyyə, eləcə də digər sahələrdə işləyənlərin, həmçinin pensiyaçı və təqaüdçülərin əməkhaqları, pensiya və müavinətləri plastik kartlar vasitəsilə nağdsız qaydada ödənilir. Diqqətə çatdırılıb ki, vətəndaşlar, həmçinin vergi, sosial, sığorta və digər ödənişləri qısa zaman ərzində onlayn və POS-terminallar vasitəsilə də rahat şəkildə həyata keçirə bilərlər.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

*Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti*

## Əmək yarmarkası olub



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən muxtar respublikada işaxtaran və işsiz şəxslərin məşğulluğunun təmin olunması istiqamətində əmək yarmarkalarının təşkili də diqqət mərkəzində saxlanılır. Bu tədbirlərin davamı olaraq aprel ayının 6-da Sədərək rayonunda keçirilən əmək yarmarkasında işaxtaranlara 4-ü dövlət və 2-si özəl sektor olmaqla, ümumilikdə, 6 müəssisədən 78 boş iş yerləri təqdim edilib. Bunlardan 56-nı qulluqçu vəzifəsi, 22-ni isə fəhlə peşəsi təşkil edib. Qeyd edək ki, əmək yarmarkasında 10 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 6 nəfərin peşə kurslarına və 17 nəfərin özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

Əmək yarmarkaları aprel ayı ərzində davam edəcək və növbəti əmək yarmarkası aprel ayının 8-də Kəngərli rayonunda təşkil ediləcəkdir.

*Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti*

## Sənaye muxtar respublika iqtisadiyyatının lokomotividir

Muxtar respublikada davamlı inkişafın təmin edilməsində mühüm sahələrdən biri də sənayedir. Son dövrlərdə bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, uğurlu investisiya siyasəti, sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı yeni məhsul növlərinin istehsalını təmin etmiş, daxili tələbatın yerli istehsal hesabına ödənilməsinə, məşğulluq səviyyəsinin yüksəldilməsinə, ümumilikdə, iqtisadiyyatın bütün sahələrinin inkişafına yeni imkanlar yaratmışdır.

2020-ci ildə muxtar respublikada sənayenin ümumi inkişafını əks etdirən əsas göstərici kimi 1 milyard 40 milyon 475 min 900 manat dəyərində məhsul istehsalı qeydə alınmışdır ki, bu da 2010-cu ildəki müvafiq göstəricidən 3,3 dəfə çoxdur.

**_Sənaye məhsulu, min manat_**




2020-ci ildə sənaye məhsulunun 6,6 faizi dövlət sektorunda, 93,4 faizi qeyri-dövlət sektorunda istehsal edilmişdir. 2010-cu ildə isə bu göstəricilər müvafiq olaraq 12,3 və 87,7 faiz təşkil etmişdir.

Muxtar respublikada 2020-ci ildə ümumi daxili məhsulun sahə strukturunda sənaye 27,6 faizlik payla ilk yerdə təmsil olunmuşdur. 2010-cu ildə isə ümumi daxili məhsulun sahə strukturunda sənayenin payı 18,3 faiz təşkil etmiş və sıralamada 3-cü yerdə olmuşdur.

2020-ci ildə hər bir nəfərə düşən sənaye məhsulu 2259,1 manat təşkil etmişdir ki, bu da 2010-cu ildəki göstəricidən



2,9 dəfə çoxdur.

2020-ci ildə sənaye məhsulunun 0,1 faizi mədənçıxarma sənayesində, 0,4 faizi su təchizatı; çirkli suların və tullantıların təmizlənməsi, 6 faizi elektrik enerjisi, qaz, buxar və kondisiyalaşdırılmış hava ilə təchizat müəssisələrində və 93,5 faizi emal sənayesində istehsal olunmuşdur. 2020-ci ildə emal sənayesində qeydə alınmış məhsul istehsalı 2010-cu ildəki müvafiq göstəricini 3,5 dəfə üstələmişdir. Emal sənayesi kənd təsərrüfatından və mədənçıxarma sənayesindən əldə edilən məhsulların işlənildiyi və istifadəyə hazır vəziyyətə gətirildiyi sahə olub məşğulluğun təmin edilməsində mühüm yer tutur.

Muxtar respublikada mikro və kiçik sahibkarlıq subyektlərinin yaradılmasının dəstəklənməsi istiqamətində "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamlarının icrası istehsal və emal fəaliyyəti ilə məşğul olan ailə təsərrüfatlarının sayının, eləcə də onların istehsal etdikləri məhsulların növ və çeşidlərinin artımına müsbət təsir göstərmişdir.

Sənayenin inkişafı istiqamətində 2020-ci ildə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 18 milyon 561 min manat kreditlər verilmişdir ki, bu da 2010-cu ildəki göstəricidən 2,6 dəfə çoxdur.

Yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsini təmin etmiş, 2020-ci ildə 325 milyon 362 min 200 ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunmuşdur.

Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2020-ci ildə sənaye sahəsində 16913 nəfər işçi çalışmışdır ki, bu da 2010-cu ildəki müvafiq göstəricidən 31,6 faiz çoxdur. Bu dövr ərzində bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 2010-cu ildəki göstəriciyə nisbətən 46,2 faiz artaraq 431,8 manat təşkil etmişdir.

Muxtar respublikada sənayenin davamlı inkişafı istiqamətində cari ilin yanvar-fevral aylarında odun kömürü, taxıl



emalı, unlu-qənnadı məmulatlar və kürə çörəyi istehsalı sahələri yaradılmış, mebel, plastik kapsul və qapaq istehsalı sahələri genişləndirilmişdir.

Şərur Sənaye Məhəlləsinin, elektrik enerjisi istehsalı sahələrinin, yeni duz şaxtasının və duz istehsalı, süd məhsullarının emalı, enerji içkilərinin, plastik məmulatların, xalça və bərk sürtkü yağlarının istehsalı, tullantı yağlarının yenidən emalı sahələrinin yaradılması, unlu-qənnadı məmulatların istehsalı sahəsinin genişləndirilməsi davam etdirilmişdir.

2021-ci ilin muxtar respublikada "İxrac ili" elan olunması sənayeləşmə prosesinin daha da sürətləndirilməsinə, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına və möhkəmləndirilməsinə, ixracın genişlənməsinə yeni imkanlar yaradacaqdır.

*Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti*

# İnsan sağlamlığı cəmiyyətin ən qiymətli sərvətidir



***7 aprel bütün dünyada Sağlamlıq Günü kimi qeyd olunur. Bu tarix 1948-ci il aprelin 7-də BMT-nin xüsusi agentliyi kimi yaradılan Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətə başlaması ilə əlaqədardır.***

Səhiyyə hər bir ölkə üçün ən vacib sahələrdən biridir. Çünki bu sahə birbaşa insanların sağlamlığı ilə bağlıdır. Səhiyyə inkişaf edirsə, insanların sağlamlığı etibarlı qorunursa, o zaman ölkə də inkişaf edəcəkdir. Ölkəmizdə səhiyyənin cəmiyyət və dövlət həyatında ən mühüm sahəyə çevrilməsi, inkişaf və tərəqqisi xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Həyatını ölkəmizin yüksəlişinə və insanların xoşbəxtliyinə həsr edən ümummilli liderimiz səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirərək demişdir: ***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir”.*** Bu gün dövlət başçısı cənab İlham Əliyevin ulu öndərin müəyyənləşdirdiyi yolu uğurla davam etdirməsi səhiyyə sisteminin də inkişafına səbəb olub. Qəbul olunmuş Dövlət proqramlarının uğurlu icrası xəstələrə göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, xəstələrin dərmanla təchizatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına imkan verib.

Muxtar respublikamızda da vətəndaşların sağlamlığının qorunması istiqamətində mühüm işlər görülüb. Dövlət başçısı cənab İlham Əliyev muxtar respublikada uğurla həyata keçirilən səhiyyə islahatlarını yüksək qiymətləndirərək demişdir: ***“Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksəksəviyyəli tibbi xidmət göstərilsin. Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir”.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***“Dövlətimizin ən qiymətli incisi onun vətəndaşlarıdır”*** prinsipi əsas götürülərək muxtar respublikada səhiyyə infrastrukturunun yenilənməsi, yeni ambulator və stasionar müalicə-profilaktika müəssisələrinin yaradılması, müasir avadanlıqlarla təchiz edilməsi, bu sistemin yeni dövrün tələblərinə uyğunlaşdırılması əhalinin sağlamlığının etibarlı təminatına geniş imkanlar açıb. Səhiyyə müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən ardıcıl tədbirlər tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsində, demoqrafik göstəricilərin yaxşılaşmasında, orta ömür müddətinin uzadılmasında əsaslı dönüş yaradıb. Hazırda muxtar respublikada əhaliyə 216 tibb müəssisəsi tərəfindən səhiyyə xidməti göstərilir. Həmin tibb müəssisələrində 704 həkim, 2 min 191 orta tibb işçisi çalışır ki, bu da muxtar respublika üzrə hər 10 min nəfərin 15,2 həkimlə, 47,5 orta tibb işçisi ilə təmin olunması deməkdir.

Muxtar respublikada uzun illər insanların qarşılaşdıqları problemlərdən biri onların tibbi yardımı yerlərdə ala bilməyib, hər bir müayinə və tibbi müdaxilə üçün Naxçıvan şəhərinə, başqa yerlərə getmək məcburiyyətində qalmaları olub. Son illər bu problem tamamilə aradan qaldırılıb. Rayon mərkəzi və kənd sahə xəstəxanaları, həkim ambulatoriyaları, feldşer-mama məntəqələri müasir tələblər səviyyəsində qurulub, tibbi avadanlıqlarla təchiz edilib və həmin avadanlıqlarla işləyə biləcək kadrlar yetişib. Əminliklə, demək olar ki, artıq vətəndaşların hər kənddə, rayon mərkəzlərində keyfiyyətli tibbi yardım alması mümkündür.

Əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsində icbari tibbi sığortanın tətbiqi mühüm şərtdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 18 mart tarixli “Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Fərmanı muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəlməsi, hər bir vətəndaş üçün əlçatan olması baxımından mühüm əhəmiyyət daşıyır. İcbari tibbi sığorta sisteminin tətbiqinə uyğun olaraq publik hüquqi şəxs statusu alan müəssisələrdə işçilərin əməkhaqları 50 faiz artırılıb. Həmin müəssisələrdə icbari tibbi sığortanın və tibbi xidmətin fəaliyyətini təmin etmək üçün cari təmir və yenidənqurma işləri aparılıb, ehtiyac olan avadanlıqlarla təmin edilib və sığorta üçün vacib olan nümunəvi tibbi informasiya sistemi – kompüter proqram təminatı yaradılıb. Rayonlarda həyata keçirilməsi mümkün olan müayinə və müalicələr vətəndaşlara tibbi sığorta hesabına həyata keçirilib, tətbiq olunması mümkün olmayan xidmətlərin siyahısı dəqiqləşdirilib, bu siyahıya uyğun xidmətlər göstərəcək tibb müəssisələri müəyyənləşdirilib. Ehtiyacı olan xəstələrin müayinə və müalicələri göndərişlə təmin olunaraq həmin müəssisələrdə tibbi sığorta hesabına həyata keçirilir. 2020-ci ildə muxtar respublikada 215 minə yaxın sakin icbari tibbi sığortadan istifadə edib.

Muxtar respublikanın səhiyyə müəssisələrində xroniki böyrək çatışmazlığından əziyyət çəkən xəstələrin aktiv müalicəyə cəlb edilməsi, eləcə də xəstələrin dövlət vəsaiti hesabına ixtisaslaşdırılmış müalicə ilə təminatı daim nəzarətdə saxlanılır. Həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünə nəzarət vasitələri ilə təminatı xeyli yaxşılaşıb. Son illər strateji əhəmiyyətli məsələ kimi qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilir. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb. Qan Bankında qan komponentlərinin alınması və uzun müddət saxlanılması üçün hər bir şərait yaradılmış, talassemiya və hemofiliyalı xəstələrin hərtərəfli müalicəsi təmin edilmişdir.

Səhiyyə sistemində o zaman uğurlar qazanılır ki, xəstəxanalar müasir avadanlıqlar və təcili yardım avtomobilləri ilə təmin olunur. Naxçıvan Muxtar Respublikasının səhiyyə müəssisələrinə təcili tibbi yardım avtomobillərinin təqdim olunması bu xidmətin təşkilində keyfiyyətcə yeni mərhələ açıb. Hazırda səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır, təcili yardım, elektrokardioqrafiya, exokardioqrafiya, EKQ-tredmil, rentgen, çoxprofilli diaqnostika, hemodializ, cərrahiyyə, kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə insan orqanizminin hərtərəfli müayinəsi mümkündür.

Cəmiyyətdə sağlam nəslin formalaşmasında uşaqların sağlam böyüməsi mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlə muxtar respublikada uşaqlara tibbi xidmətlərin keyfiyyətinin artırılması və müasir tələblərə uyğunlaşdırılması üçün ardıcıl tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq publik hüquqi şəxs statuslu Şərur və Ordubad Rayon Uşaq xəstəxanalarının yaradılması gələcəyimiz olan uşaqların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlərdən biridir.

Muxtar respublikada dispanserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar kəndlərdə və obalarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidmətləri göstərmək məqsədilə yaradılmış həkim briqadaları hazırda fəaliyyətlərini davam etdirir, yerlərdə əhalinin müayinə-müalicə işi ilə məşğul olurlar. Qadınlar arasında süd vəzi xərçəngini vaxtında aşkarlamaq üçün profilaktik kütləvi müayinələr, ilkin vərəm xəstəliyinin vaxtında aşkarlanması məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin və diaskin test sınağı, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların, tələbələrin kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji və digər müayinələri davam etdirilir. Reproduktiv sağlamlıq və ailə planlaşdırılması nəticəsində ana və uşaqların sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur. Sağlam cəmiyyətin formalaşdırılması istiqamətində aparılan uğurlu siyasət əhalinin demoqrafik göstəricilərinin yüksəldilməsinə müsbət təsir göstərir.





“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq səhiyyə sistemində elektron xidmətlər təkmilləşdirilir. Tibbi-Sosial Ekspertiza Komissiyasına göndərişlər onlayn sistemə keçirilib. Bu sistem sağlamlıq imkanları məhdudluğun qiymətləndirilməsinin vətəndaş-ekspert təması olmadan, elektron müstəvidə və şəxsin kimliyi, göndəriş verən təşkilatın hansı səhiyyə qurumu olduğu bilinmədən anonim olaraq, xəstəliyi əks etdirən tibbi sənədlər əsasında şəffaf şəkildə həyata keçirilməsinə imkan yaradır. Gənc ailələrdə səhiyyə maarifi işi, hamilə qadınların və uşaqların patronaj xidməti, yeni doğulmuşların vaxtında qeydiyyata alınması, uşaqların Elektron sağlamlıq kartları ilə təminatı və ondan istifadə qaydasının öyrədilməsi məqsədilə maarifləndirici tədbirlərin davamlı aparılmasına nail olunmuşdur.

Ötən ildən dünyanın bir çox ölkələrində böyük təhlükəyə çevrilən koronavirus infeksiyasının muxtar respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həlli Naxçıvan səhiyyəsinin prioritet istiqaməti olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” 2020-ci il 24 mart tarixli Fərmanına əsasən muxtar respublikada koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinin gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikasında Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılmışdır. Virusla mübarizə məqsədilə səhiyyə müəssisələri, Polimer Zəncirvarı Reaksiya Laboratoriyası müasir tibbi avadanlıqlar, dərman və ləvazimatlar, həmçinin dezinfeksiya məhlulları ilə təmin olunmuşdur.

“Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”na müvafiq olaraq muxtar respublikada da vaksinasiya ardıcıl şəkildə davam etdirilir. Risk qrupuna daxil olan tibb işçilərinə və insanlara, uşaq və yeniyetmə müəssisələrində çalışan şəxslərə peyvəndlər vurulur. Dəmir yolu və avtovağzallarda, topdan və pərakəndə satış məntəqələrində, sinif otaqlarında, idman zallarında, bufet və yeməkxanalarda, dəhlizlərdə, sanitar qovşaqlarında və digər yerlərdə müntəzəm olaraq dezinfeksiya və dezinseksiya işləri təşkil olunur. İctimai iaşə, ticarət, su təchizatı, sərhəd-gömrük məntəqələrində profilaktik sağlamlaşdırıcı əks-epidemik tədbirlər həyata keçirilir. Yaradılan şəraitin və görülən qabaqlayıcı tədbirlərin nəticəsidir ki, muxtar respublikada məhdud çərçivədə rast gələn virus dərhal lokallaşdırılaraq geniş yayılmasının qarşısı alınır.

Şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə səhiyyə xidmətinin göstərilməsi, o cümlədən tibbi yardım, ixtisaslı həkimlər tərəfindən müayinə və müalicələrin aparılması, həmçinin ehtiyac olan dərman preparatları ilə ödənişsiz təmin edilməsi, sağlamlıq imkanları məhdudluğun təyin olunması üçün lazımi tibbi sənədlərin hazırlanması və digər xidmətlərin yüksək səviyyədə təmin edilməsi hazırda davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər”.***

Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi sahəsində tədbirlər davam etdirilir. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi” haqqında 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi və Tibb Kolleci Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə hamiliyə verilib. Həyata keçirilən tədbirlər nəticəsində Səhiyyə Nazirliyi ilə bu təhsil müəssisələri arasında əlaqələr daha da genişlənib. Görülən işlərin nəticəsi olaraq son illər Naxçıvan səhiyyəsində müxtəlif ixtisaslar üzrə yüksəkixtisaslı gənc həkimlərin sayı xeyli artıb. Muxtar respublikanın səhiyyə müəssisələrinin əksəriyyətinə gənc kadrların rəhbərlik etməsi onlara göstərilən inam və etimadın göstəricisidir. Tibb mütəxəssislərinin bilik və bacarıqlarının yüksəldilməsi, ixtisas səviyyəsinin artırılması üçün müvafiq mexanizmlər yaradılır, onlar Bakı şəhəri və Türkiyə Respublikasının müxtəlif klinika və xəstəxanalarına təkmilləşmə və təcrübə kurslarına göndərilir, digər xarici ölkələrdə təlimlər təşkil edilir. Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin sertifikasiyasının aparılması, səhiyyə işçilərinin müasir elmi biliklərinin artırılması üçün müxtəlif profilli elmi-praktik seminar və konfransların təşkili diqqət mərkəzində saxlanılır. İstər tibb fakültəsinin, istərsə də tibb kollecinin məzunları bu gün muxtar respublikada ən mürəkkəb cərrahi əməliyyatların aparılmasında iştirak edirlər. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən Bakı şəhərində və xarici ölkələrdə fəaliyyət göstərən müxtəlif klinikalardan yüksəkixtisaslı həkimlərin və kollektivlərin muxtar respublikaya dəvət olunması və Naxçıvan həkimləri ilə birgə mürəkkəb cərrahi əməliyyatlar aparmaları diqqətdə saxlanılır. Sosial layihələr çərçivəsində yüksəkixtisaslı həkim heyəti tərəfindən aparılan cərrahi əməliyyatlar yerli həkimlərin peşə bacarıqlarının yüksəldilməsində mühüm rol oynayır. Hazırda yerli həkim kadrlar tərəfindən müstəqil şəkildə TUR, açıq ürək, ürək damarlarına stend qoyulması, laparoskopik, LOR, göz və digər mürəkkəb cərrahiyyə əməliyyatları aparılmasına nail olunur. Artıq mürəkkəb cərrahi əməliyyatların da Naxçıvanda həyata keçirilməsi əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını alıb. Aztəminatlı ailələrdən olan xəstələrə yönəldilmiş xüsusi sağlamlıq layihələri çərçivəsində açıq ürək əməliyyatları, koronarangioqrafiya manipulyasiyası, ürək damarlarına stend qoyulması, müxtəlif göz və digər əməliyyatların aparılması uğurla davam etdirilir.

Naxçıvanda səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Duzdağ Fizioterapiya Mərkəzinin, Darıdağ Arsenli Su Müalicəxanasının və Ağbulaq İstirahət Mərkəzinin imkanları hesabına təşkil olunan müalicə turizmi xidmətləri muxtar respublikanın ümumi turizm potensialının mühüm bir hissəsini təşkil edir. Duzdağ Fizioterapiya Mərkəzi hər il orta hesabla 4 min xəstə qəbul edir. Mərkəzdə ölkəmizin bir çox yerlərindən, o cümlədən Türkiyə, Gürcüstan, Ukrayna, İran, Rusiya, Tacikistan, Qazaxıstan, Almaniya, Hollandiya, Avstriya və İngiltərə kimi xarici ölkələrdən gələn insanların yuxarı tənəffüs yolları xəstəlikləri müalicə olunur. Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin inşası da səhiyyə turizminin inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

Muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Muxtar respublikanın tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Şərqin qapısı Naxçıvanda rəssamlıq sənətinin tarixi Gəmiqaya təsvirlərindən başlayır, XII əsr memarlıq məktəbinin təsiri ilə inkişaf edir, XX əsrin əvvəllərində Azərbaycan realist rəssamlığının banisi Bəhruz Kəngərli ilə zirvəyə yüksəlir, Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatının, sonralar Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yaradılması, fəaliyyəti ilə daha da zənginləşir. Bu gün Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi özünün 54 üzvü ilə birgə günümüzün real mənzərəsinin yaradılmasında, tariximizin və milli dəyərlərimizin təbliğində mühüm rol oynayır. Məhz səmərəli fəaliyyətinin nəticəsidir ki, Ali Məclisin Sədri cənab Vasif Talıbov 2021-ci il 2 mart tarixində "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Biz də 50 il ərzində keçilən bu tarixi yola bir daha nəzər salmaq üçün Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva ilə həmsöhbət olduq.*

**Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50**

# Naxçıvanın 50 yaşlı yaradıcılıq məbədi, sənət ocağından müsahibə

***– Ülviyyə xanım, əvvəlcə Rəssamlar Birliyinin dününənə qısaca nəzər salaq.***



– Xalqımızın böyük oğlu, ulu öndərimiz Heydər Əliyev hakimiyyətinin hər iki dönəmində muxtar respublikamızda hər bir sahəyə ayrıca diqqət və qayğı göstərib. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin yaradılması da ümummilli liderin adı ilə bağlıdır. Hələ 1970-ci ildə muxtar respublikada kifayət qədər rəssamın mövcudluğu onların yerli təşkilatda birləşmələrinə zəruri şərait yaratmışdı. Həmin ilin sonunda muxtar respublika rəssamları bu məsələ ilə əlaqədar Azərbaycan Rəssamlar İttifaqının sədrinə müraciət etmiş, Rəssamlar İttifaqının İdarə Heyəti bu təşəbbüsə tərəfdar çıxaraq məsələni respublika rəhbərliyinə və SSRİ Rəssamlar İttifaqına çatdırmışdı. Nəhayət, ümummilli liderimizin himayəsi ilə 1971-ci ildə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı yaradılmışdır. O dövrün tanınan, seçilən rəssamlarından olan Məmməd Qasımov təşkilatın ilk sədri olub. Həmin dövrdə təşkilatda 10 rəssam fəaliyyət göstərib. Onların bir çoxunun fəaliyyəti teatr rəssamlığı ilə sıx əlaqəli idi. Bu gün onların içərisində həyatda qalan tək boyakar-rəssamımız Məmməd Şirzadovdur ki, o da Türkiyədə bizi təmsil edir, Afyon Kocatəpə Universitetinin professorudur. 1971-1976-cı illərdə Şamil Mustafayev təşkilatın sədri olub və o dövrdə təşkilatın üzvlüyünə heç kim qəbul edilməyib. 1976-1987-ci illərdə Abuzər Qardaşbəyov sədr seçilib və təşkilata 12 nəfər rəssam üzv seçilib. 1987-1989-cu illərə kimi Mircəlil Seyidovun sədrliyi dövründə təşkilata 7 nəfər üzv qəbul olunub. Onlar İsmayıl Əliyev, Sabir Mehdiyev, Telman Abdinov, Məhəmmədəli Ələkbərov, Aydın Rəcəbov və başqaları idi. Bu rəssamlarımızdan bir çoxu hazırda fəaliyyətini davam etdirir. 1989-1999-cu illərdə təşkilata Babək Abazərli rəhbərlik edib.

***– Ötən əsrin 90-cı illərinin təlatümlü dövrü, yəqin ki, təşkilatın da fəaliyyətinə təsirsiz ötüşmədi. Təşkilat bu böhranlı vəziyyətdən necə xilas oldu?***

– Bəli. Təşkilat 90-cı illərin çətin dönəmində fəaliyyətini dayandırmalı olmuşdu. Lakin ulu öndərin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra bütün sahələr, eləcə də rəssamlıq da inkişafın yeni mərhələsinə qədəm qoydu. Həmin dövrdə 2 nəfər rəssam üzvlüyə qəbul edildi. 2000-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun təşəbbüs və qayğısı ilə Azərbaycan Rəssamlar İttifaqının Naxçıvan Təşkilatı müstəqil bir yaradıcılıq qurumuna – Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyinə çevrildi. Birliyə 2000-2011-ci illərdə Azərbaycan Respublikasının Xalq rəssamı Hüseynqulu Əliyev sədrlik etdi. Həmin dövrdə 15 rəssam birliyin üzvlüyünə qəbul olundu. Bu gün də öz fəaliyyətini davam etdirən rəssamlarımız içərisində Rafael Qədimov, Əli Səfərli, Həsən Qurbanov, Səyyad Bayramov, Həbibə Allahverdiyeva, Anar Əliyev, Sabir Məmmədov, Həmzə Sadiqov, Fikrət Babayev, Cavid İsmayılov və digərləri vardır. 2011-ci ildən bu günədək Rəssamlar Birliyinə sədrlik edirəm. Ötən dövr ərzində birliyə 26 nəfər üzv qəbul edilib. Onlar bu gün müasir Naxçıvanımızı layiqincə təbliğ və təmsil edirlər.

***– Naxçıvanlı rəssamların yaradıcılığı həmişə diqqətçəkən olub. Onları sənətkarlıq baxımından hansı xarakterik cəhətlər fərqləndirir?***

– Rəssamlar Birliyinin 2011-ci ildə 40 illik yubileyi ərəfəsində Bakı şəhərində Naxçıvan rəssamlarının sərgisi keçirildi. Dünyaca tanınmış Xalq rəssamı Tahir Salahov orada dedi ki, Naxçıvan rəssamlarının "görmə qabiliyyəti" pozulmayıb, onların "görmə qabiliyyəti" təmizdir və yaradıcılıqlarına yad ünsürlər təsir etməyib. Həqiqətən də, böyük qiymətdir. Bizim rəssamlarımız bu gün də yaradıcılıqda klassik üslubu qoruyub saxlayırlar. Niyə, çünki görkəmli rəssam Bəhruz Kəngərlinin davamçılarıyıq. Həmçinin rəssamlarımızın özlərinəməxsus üslubları vardır və həmin üslublar bu gün dünyada qəbul olunandır. Məsələn, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Məhəmmədəli Ələkbərov abstraksiya janrında çalışır. Azərbaycan Respublikasının Əməkdar rəssamı Telman Abdinovun üslubu, rəngləri, işığı fərqlidir. Xalq rəssamı Hüseynqulu Əliyev təsviri sənəti mükəmməl şəkildə davam edirir. Azərbaycan Respublikasının Əməkdar rəssamı Həsən Qurbanov yaradıcılığında həm klassik üslubu qoruyur, həm də özünəxas üslubu ilə seçilir. Onun əsərlərində daha çox Naxçıvan mənzərələrini görmək mümkündür. Bizim portret janrında işləyən rəssamlarımız da kifayət qədərdir. Onu da qeyd edim ki, bu gün Rəssamlar Birliyində Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunu müvafiq ixtisaslar üzrə bitirmiş rəssamlarımız üstünlük təşkil edir. Onların içərisində Cavid İsmayılov, Həbibə Allahverdiyeva, Fizzə Quliyeva, Şəmsiyyə Zalova, Həbib Allahverdiyev, Murad Babayev, Arzu Novruzov, Ruslan Zamanov, Ələkbər Ələkbərov kimi rəssamlar var. Həqiqətən də, onlar müasir dövrün yaxşı tanınan rəssamlarındandır. Bir çox rəsm festivallarında, simpoziumlarda özlərini doğrulddublar, yaradıcılıqlarını sevdirə biliblər.

***– Ülviyyə xanım, sizin də çox fərqli, maraqlı üslubunuz var...***

– Belə deyirlər (gülümsəyir). Akademik İsa Həbibbəyli əl işlərimə "müasir miniatür" deyir. Türkiyə və digər ölkələrin rəssamları yaradıcılığımda impresionizm, sürrealizm cərəyanlarının təsirindən danışırlar. Demək olar ki, rəssamlıqda mövcud olan bütün cərəyanlara müraciət edirəm. Sonda ortaya çıxan rəsm əsəri isə tamamilə mənim reallığımdır. Ümumiyyətlə, muxtar respublika rəssamlarının yaradıcılığı hər yerdə diqqəti cəlb edir. Naxçıvanda yaradılan şəraitin nəticəsidir ki, biz rəssamlar işləyə və yaradıcılığımızı göstərə bilirik. Diyarımızda rəssamlarımıza hörmət, diqqət, qayğı yüksək səviyyədədir.

***– Rəssamlıq istedadına malik olan uşaq, yeniyetmə və gənclərin üzə çıxarılması, bu sahədə kadr hazırlığı prosesi necə aparılır?***



– Bu gün muxtar respublikamızda rəssamlığa maraqlı olan kifayət qədər uşaq, yeniyetmə və gənclərimiz vardır. Birliyin və rəssamların tanıdılması, gənc istedadların üzə çıxarılması üçün Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yerləşən uşaq yaradıcılıq mərkəzlərində birlik üzvləri tərəfindən mütəmadi olaraq ustad dərsləri keçirilir. Bununla yanaşı, hər il balaca rəssamların əl işlərindən ibarət "İRS" adlı sərgi təşkil edilir. Naxçıvan Rəssamlar Birliyində də mütəmadi olaraq qonaq rəssamların tələbə və həvəskar rəssamlara ustad dərsləri vasitəsilə bu sənətin sirlərini öyrətmələrinə çalışırıq. Müxtəlif rəsm dərnəkləri fəaliyyət göstərir ki, bu dərnəklərdə gələcəyin rəssamları hazırlanır. 1971-ci ildən ötən əsrin sonlarına kimi gənc rəssamlar Azərbaycan Rəssamlar İttifaqının üzvlüyünə çətinliklə qəbul olunurdular. 2000-ci illərdə Azərbaycan Rəssamlar İttifaqı Naxçıvan Təşkilatının səmərəli fəaliyyəti nəticəsində həvəskar-gənc rəssamların ixtisas təhsillərinə diqqət artırıldı, yerli rəssamların yaradıcılıq ezamiyyətlərinə göndərilməsi işinə başlanıldı. Biz xüsusi fitri istedada malik gənc rəssamları Rəssamlar Birliyinə üzv qəbul edirik, onlar bu sahədə püxtələşəndən sonra Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul oluna bilirlər. Ötən ilin noyabr ayında birliyimizin nəzdində ilk dəfə olaraq Gənc rəssamlar bölməsi yaradıldı. Buraya üzv olan və yaxud üzv olmaq istəyən gənclər professional rəssamlarımızla bir yerdə işləyir, onların sərgiləri keçirilir. Bu gün həmin bölmədə 25 nəfər gənc təmsil olunur. Onu da xüsusi olaraq qeyd edim ki, muxtar respublikamızda gənc rəssamların yetişməsi, rəssamlıq sənətinin tədrisi üçün də hərtərəfli şərait mövcuddur. Naxçıvan Dövlət Universitetində Təsviri incəsənət müəllimliyi, Rəngkarlıq, Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisasları açılıb. Həmin ixtisaslar Ali Məclis Sədrinin müvafiq sərəncamına uyğun olaraq Rəssamlar Birliyinin hamiliyinə verilib. Burada təhsil alan tələbələr üçün ustad dərsləri, maraqlı müsabiqələr, sərgilər təşkil edilir. Onların bir çoxu bu gün Gənc rəssamlar bölməsində fəaliyyət göstərirlər.

***–Naxçıvan şəhərində incəsənət sahəsində də beynəlxalq tədbirlər keçirilir, eyni zamanda naxçıvanlı rəssamların xarici ölkələrdə iştirakı təmin olunur…***

– Bəli, muxtar respublikada rəssamlıq sənətinin inkişafına göstərilən diqqət və qayğının bir nümunəsi də 2012-ci ildən etibarən hər iki ildən bir təşkil edilən "Naxçıvan – bəşəriyyətin beşiyi" Beynəlxalq Rəsm Festivalıdır. IV Beynəlxalq Rəsm Festivalı ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuşdu və çox maraqla qarşılandı. Bu festivalda dünyanın müxtəlif ölkələrindən – Türkiyə, İran, Gürcüstan, Qazaxıstan, Ukrayna, Rusiya, Finlandiya, Sloveniya, Misir, Oman, Polşa və digərlərindən rəssamlar iştirak edir, onlar öz fırçaları ilə Naxçıvanı tərənnüm edirlər. Bu həm diyarımızın təbliğində, həm də rəssamlar arasında sənət mübadiləsinin aparılması işində əhəmiyyətli rola malikdir. Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda mütəmadi olaraq yerli sənətkarların maraqlı sərgiləri, eyni zamanda beynəlxalq sərgilər keçirilir. Bu gün respublikada fəaliyyət göstərən yaradıcı təşkilatlarla səmərəli əməkdaşlıq edirik. Rəssamlar Birliyinin üzvləri Azərbaycan Rəssamlar İttifaqı tərəfindən keçirilən sərgilərdə iştirak edir, eyni zamanda naxçıvanlı rəssamların sərgiləri mütəmadi olaraq Bakı şəhərində, digər xarici ölkələrdə təşkil edilir. Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həbibə Allahverdiyevanın 2018-ci ildə Türkiyə Respublikasında keçirilən "Dənizlərimiz və rənglərimiz" adlı beynəlxalq sualtı rəsm sərgisində Naxçıvandan olan yeganə azərbaycanlı qadın kimi iştirakı, eləcə də gənc rəssamlarımızdan Həbib Allahverdiyevin, Murad Nurlunun, Arzu Novruzovun və birliyin digər üzvlərinin Türkiyə, İran və başqa ölkələrdə təşkil edilən rəsm sərgilərində iştirakı başlıca uğurlarımızdandır. 2019-cu ildə Art Ankara V Müasir İncəsənət Sərgisində iştirakımız uğurlu olub. Bu yaxınlarda Atatürk Universiteti ilə rəssamlığın inkişafına töhfə verəcək maraqlı bir konfrans baş tutacaq. Həmçinin mən UNESCO yanında Rəssamlar Birliyinin üzvüyəm və beynəlxalq təşkilat tərəfindən keçirilən sərgilərdə də iştirak edirik.

***– Ötən dövr ərzində muxtar respublika rəssamları hərtərəfli diqqət və qayğı ilə əhatə olunub...***

– Muxtar respublika rəhbərinin qayğısı sayəsində rəssamlıq sənətinin inkişafı ilə bağlı ardıcıl tədbirlər görülüb, Rəssamlar Birliyi yeni bina və emalatxana ilə təmin edilib, birlik üzvlərinin yaradıcılıq imkanları genişləndirilib, Naxçıvan şəhərində Bəhruz Kəngərli Muzeyi və Rəssamlar Parkı yaradılıb, rəssamlarımıza fəxri adlar verilib, onların albom-kataloqları nəşr olunub. Bu gün muxtar respublikanın 1 Xalq rəssamı, 5 Azərbaycan Respublikasının, 9 Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı, 1 Əməkdar incəsənət xadimi vardır. Naxçıvan şəhərində Azərbaycan rəssamlıq sənətinin görkəmli nümayəndəsi Bəhruz Kəngərlinin adını daşıyan muzey fəaliyyət göstərir. Bu gün Azərbaycanın heç bir yerində rəssamın adını daşıyan muzey sırf özünəməxsus olmur. Ancaq bizdə muzey rəssamın həm adını daşıyır, həm də onun əsərləri ictimaiyyətə nümayiş olunur, təbliğ edilir. Bu, çox gözəl bir addımdır. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə böyük rəssamımız Bəhruz Kəngərlinin 120, görkəmli rəssam Şamil Qazıyevin 110, tanınmış rəssam İbrahim Səfiyevin isə 120 illik yubileyləri təntənəli şəkildə qeyd edilib. Bütün bunlar naxçıvanlı rəssamların həyat və yaradıcılığının daha geniş şəkildə təbliğində, ictimaiyyətə, sənətsevərlərə, müasir gəncliyə layiqincə tanıdılmasında mühüm rol oynayıb. "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə əlaqədar Rəsm Festivalının keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 25 may tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş ehtiyat fondundan Rəssamlar Birliyinə 15 min manat vəsait ayrıldı. Bunun özü Naxçıvanda rəssamlıq sənətinin inkişafına göstərilən dövlət qayğısının ən böyük nümunəsidir.



***– Bu il Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyi keçiriləcək. Bununla bağlı hansı tədbirlər planlaşdırılıb?***

– Əvvəlcə qeyd edim ki, Ali Məclis Sədrinin 2011-ci il iyulun 23-də imzaladığı Sərəncam ilə birliyin 40 illik yubileyi geniş şəkildə qeyd olundu. Həmin dövrdən artıq 10 il keçir və qürurluyuq ki, 50 illik yubileyimizi qeyd etməyə hazırlaşırıq. Muxtar respublika rəhbəri tərəfindən imzalanan "Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam bir daha muxtar respublikamızda rəssamlıq sənətinə verilən qiymətin, diqqətin və rəssamlarımıza böyük qayğının ifadəsidir. Buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə rəssamlarımız adından dərin minnətdarlığımı bildirirəm. Artıq bununla əlaqədar Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında aidiyyəti qurumlarla birgə "Naxçıvanda rəssamlıq sənətinin inkişafı" mövzusunda konfrans keçirilməsi, "Naxçıvan – bəşəriyyətin beşiyi" V Beynəlxalq Rəsm Festivalının təşkili, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illiyinə həsr olunmuş yubiley tədbirinin keçirilməsi, Naxçıvan rəssamlıq məktəbinin tanınmış nümayəndələri haqqında ensiklopedik nəşrin hazırlanması, həmçinin muxtar respublika rəssamlarının əsərlərindən ibarət sərgilərin açılması nəzərdə tutulub.

Sonda isə onu deyə bilərəm ki, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi biz rəssamların məbədidir. Bu gün muxtar respublikamızda Bəhruz Kəngərli adına Sərgi Salonu fəaliyyət göstərir. Bu illər ərzində birlik tərəfindən 1000-ə yaxın sərgi və tədbir keçirilib. Minlərlə rəsm əsəri çəkilib nümayiş olunub, yüzlərlə rəsm əsəri satılıbdır. Bu, böyük bir tarixdir. Biz bu tarixi qoruyub saxlayacaq və gələcək nəsillərə ötürəcəyik. Bundan sonra da muxtar respublikamızda rəssamlıq sənətinin inkişafı üçün əlimizdən gələni edəcəyik.

***– Maraqlı müsahibə üçün təşəkkür edir və bu ümdə məramınızın gerçəkləşdirilməsində uğurlar arzulayırıq.***

Güntac ŞAHMƏMMƏDLİ

*Əfsanəyə dönən ömürlər*

# Bir ananın monoloqu...



Mən qürurunu, fəxarətini işğalçılığa üsyan edib erməni fitnəkarlığına, zülmünə boyun əyməyən, son anadək rəşadətlə vuruşaraq həsrətli, hicranlı torpaqlarımıza vüsal, azadlıq toxumu səpən övladının vüqarından, qəhrəmanlığından alan, şəhid anası adlı müqəddəs mərama ucalan yüzlərlə azərbaycanlı xanımdan biri – Aytən Eyvazovayam. Xatirəsi nisgilli, qəmli gözlərimə işıq, nur gətirən, şücaəti, igidliyi pərişan qəlbimə təsəlli, hüzur bəxş edən Vətən oğlundan – sonbeşiyim İslamdan söhbət açmaq istəyirəm sizlərə. Düşündükcə xəyallar qanad açaraq uzaq keçmişə uçur, illər, fəsillər öncəsinə aparır məni, ailəmizdə yaşanan sevincli-kədərli anlarımız, qayğılı-qayğısız günlərimiz bir-bir gəlib keçir gözlərim önündən...

1999-cu il aprelin 7-də 5 nəfərdən ibarət ailəmiz daha da böyüdü, Uca Yaradan sonuncu övlad payı ilə sevinc, xoşbəxtlik gətirdi evimizə. Babasının adını qoyduğumuz üçün ailəmizdə hər kəs onu İslam deyil, Totu çağırardı. Elə körpəlikdən hər şeyə can atmağı, ürəkli, qorxmaz davranışı, şıltaqlığı ilə seçilirdi məhəllədəki həmyaşıdlarından. Atası ilə əl-ələ verib çalışdıq, halal zəhmətimizlə böyütdük övladlarımızı, qardaş-bacıları kimi, İslam da yıxıla-dura, yaxşı-yaman yaşa doldu. Vaxtvədə yetişdi, günlərin birində məktəb yaşına çatdı balam, əlindən tutub apardım Naxçıvan şəhərindəki 15 nömrəli tam orta məktəbə. İbtidai sinifdə sakitliyi, mehribanlığı ilə pedaqoji kollektivin hörmətini qazandı, bir müəllimdən şikayət, narazılıq eşitmədik İslam haqqında. İkinci sinifdə oxuyanda dedi ki, ana, musiqiyə marağım var, istəyirəm, piano çalmağı öyrənim. Evimizin son beşiyi olduğu üçün atası da, mən də hər zamankı kimi qəlbinə dəymədik, arzusuna, istəyinə qarşı çıxmadıq. Həm evimizə yaxın olduğu üçün, həm də istedadı haqqında yüksək fikirlər eşitdiyimizdən Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbində Fortepiano ixtisasına yazdırdıq adını. Oxudu axıradək məktəbi, səlis ifa etməyi öyrəndi, musiqi alətinin sirlərinə dərindən yiyələndi, təhsilini davam etdirmək üçün şəhadətnamə də aldı. Ancaq bu yolu axıradək getmədi. Sən demə, ürəyinin dərinliyində daha böyük arzular yatırmış övladımın. 8-ci sinfi bitirəndə dedi ki, əziz atam və anam, mən sənədlərimi Heydər Əliyev adına Hərbi Liseyə vermək niyyətindəyəm, arzum gələcəyin peşəkar zabiti kimi yetişməkdir, özü də xüsusi təyinatlı bölmədə xidmət keçmək arzusundayam. Ancaq əvvəlcə təhsil almalıyam ki, hərb sənətinə, bu sahəyə daha dərindən bələd olum. Atası da, mən də çətin, məsuliyyətli peşə olduğu üçün əvvəlcə razılıq verməsək də, könlümüzü ələ ala bildi. Ancaq gözlərindəki zəifliyə görə məktəbə qəbul etmədilər.

Deyirlər, alın yazısından qaçmaq olmur, qismətində varsa, gec-tez çatacaqsan istəyinə. İslam da Hərbi Liseyə qəbul ola bilməsə də, bu peşəyə yiyələnmək fikrindən qətiyyən əl çəkmədi, sanki tale özü onu bu yola getməyə sövq edirdi. Belə ki, 2019-cu ildə hərbi xidməti bitirən kimi sənədlərini də hazırlayıb müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının kursuna yazıldı. İnadkar idi, həmişəki kimi arzusundan əl çəkmədi, çəkilmədi tutduğu yoldan. Bir neçə gün sonra kurs yoldaşlarından eşitdim ki, yuxarı komandanlıqdan yoxlamaya gəliblər, İslam da könüllü şəkildə cərgənin önünə çıxıb deyib ki, mən xüsusi təyinatlı bölmədə xidmət etmək istəyirəm. Komandir də onun böyük maraq və istəyini görüb, imtahan edib, İslam da sınaqdan uğurla keçərək arzusuna çatıb. O hadisədən bir həftə sonra görüşdüyümdə gördüm sivrilib qolu. Ürəyim yandı. Dedim, sənin nə canın-cüssən var, ay oğul, gərək getməzdin ora. Elə könüldən söylədi ki, ana, çox xoşum gəlir bu formanı daşımaqdan, ağrı-acısı da şirindir xidmətin. Ana ürəyim nə qədər dözməsə də, təslim oldum onun bu sonsuz istəyi, Vətəni qorumaq arzusu qarşısında...

Sentyabrın 27-si müharibə başlayanda iki ay idi, xidmətdəydi, zəng edəndə, evə gələndə hey deyirdi, bizi də göndərsəydilər döyüşə, gedib o nankorların başını əzərdik. Müharibəyə yollanan gün də gəlmişdi evə. Elə ürəkdən deyib-gülürdü ki, heç qorxu görmədim gözlərində. Yanında bir hərbçi yoldaşını da gətirmişdi. Dedim: “Ay bala, Allah amanında, bir-birinizdən muğayat olun”. Dedi: “Ana, narahat olma İslamdan, mərdliyi, şücaəti bölməmizdə hər kəsə bəllidir, cəldliyinə, çevikliyinə, cəsurluğuna görə manqa komandiri veriblər onu, mən də əsgəri olduğum üçün çox sevinirəm”. Günorta saatlarında zəng gəldi telefonuna Totunun, heç nə demədən sağollaşıb, evdən tələm-tələsik çıxdı. Gedəndə qurban da dedim öz əməkhaqqı ilə. Hələ müharibəyə yola düşməzdən bir-iki gün əvvəl evimizə qapı-pəncərə sifarişi də vermişdi, düzəltdirmək istəyirdi baba ocağını. Elə döyüşdə olanda da hər telefon söhbətində deyirdi ki, ana, maaşımı çək, qurbanı da al, qapı-pəncərənin də pulunu verib götürün. Mən də qıymırdım, deyirdim, qoy sağ-salamat gəlsin, özü ürəyi istəyən kimi edər. Axırıncı dəfə zəng edəndə artıq Şuşa azad olunmuşdu, dedi ki, atamdan muğayat olun, artıq zəfərimizə az qalır, tezliklə qələbə müjdəsi verəcəyəm hamınıza. Şuşanın azad olunmasını noyabrın 9-da ailəlikcə geniş şəkildə qeyd edən zaman, Böyük Qələbəmizə aparan həmin saatlar, sən demə, İslamı da öz arzusuna, şəhidlik məqamına qovuşdururmuş. Şəhadətə yetmə xəbərini isə düz 10 gün sonra eşitdik... Övladımı əsl hərbçilərə xas qarşıladım. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarla İslamı “Vətən uğrunda” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif etməsi isə bir şəhid anası kimi məni hədsiz qürurlandırdı, yaralı, nisgilli könlümə qismən də olsa, rahatlıq gəldi, təskinlik tapdım...

Əziz övladım, yəqin ki, indi Vətən yolunda canından, qanından keçən yüzlərlə dostunla, sirdaşınla Cənnət bağında əyləşib seyr edirsiniz bizləri. Bilirəm, indi atan, qardaş-bacıların, mənim üçün çox darıxırsan, pərişansan, sağlığındakı kimi yenə əhvalımızı, yaşayışımızı düşünürsən. Qətiyyən narahat olma, hamımız yaxşıyıq, hər şey qaydasındadır. Uşaqlıqdan hey deyirdin ki, ata, ana, başınızı daim uca edəcəyəm, Eyvazovlar nəslinə layiq oğul olacağam, uğurlarımla sevindirəcəyəm hər birinizi, işləyib öz məvacibimlə saxlayacağam sizi. Əhdinə sadiq qaldın, İslamım. Atam, anam üzülməsin, ürəkləri kövrəlməsin, narahatlıq keçirməsinlər deyib müharibə dövründə döyüş yoldaşlarınla xatirə şəkli belə, çəkdirmədiyini də öyrəndik. Demək ki, bu müqəddəs yola çıxanda geri dönməyəcəyini yəqin etmişdin, arzun imiş şəhid olmaq. Mənə ən çox təsir edən sözün isə hərbçi yoldaşlarına: “Mən böyüməkdən deyil, anamın qocalmağından qorxuram”, – deməyin idi. Qorxma, sonbeşiyim, həsrətin bağrımı yandırıb-yaxsa da, qəhrəmanlığın, dönməzliyin, şərəfli missiyanı ailəmizin adına layiq, uğurla yerinə yetirdiyin üçün fəxr edirəm səninlə, barəndə eşitdiyim qürur dolu sözlərdən qəlbimə su səpilib, toxtağam. Uşaqlıqdan həmişə həmyaşıdların arasında özünü müsbət xüsusiyyətlərinlə tanıtmağı, sevdirməyi bacarırdın. İndi səni, nəinki kəndimizin sakinləri, dost-tanışların, bütün Azərbaycan igid, qəhrəman oğul, Vətən, millət təəssübkeşi kimi tanıyır, sevir, milyonların qəlbində yaşayırsan. Oxuduğun 15 nömrəli tam orta məktəbdə hər gün müəllimlərin böyük ehtiramla adını anır, uşaqlar səndən vətənpərvərlik nümunəsi götürür, sənin kimi igidlərimizi tərənnüm edən şeirləri sevə-sevə qiraət edir balacalar, küçəmizdən keçənlər üçrəngli sevdalınla bəzənən evimizin kandarında ayaq saxlayır, “Bu ocaqda bir igid yaşayıb, onu yad etməsək, olmaz”, – deyib ruhuna dualar oxuyurlar.

Totum, qapımızın kandarına bir bulaq çəkdirmək ən böyük arzumdur, atanla da danışmışam, canla-başla razıdır, adını da İslam qoyacağıq. Vətən üçün dolub-daşan o balaca qəlbində qaynayan böyük arzuların qoy çağlayıb axsın könüllərə, təravət gətirsin ürəklərə, aydınlığa çıxarsın ev-eşikləri, bərəkət bəxş etsin ocaqlara...

Bu gün doğum günündür... Sən Cənnətdə ikən, ilk dəfə sənsiz qeyd edirik ad gününü, gəlmişik qəbrin üstündə ruhunla görüşə. 22 yaşın tamam olur artıq. Doğru deyiblər ki, övlad nə qədər böyüsə də, valideynin gözündə elə körpə uşaq kimi qalır. Sən də bizim üçün eləsən. Bu 22 il necə gəlib-keçdi, nə zaman böyüdün, yaşa doldun bilmədik, amma balaca ürəyinə dağ boyda vüqarı sığdıra bildin. Bax o xüsusiyyətindir səni fərqli edən, hər kəsə qismət olmayan əvəzolunmaz nemətdir... Anan sənə qurban olsun...

**✍ Nail ƏSGƏROV**

***“Naxçıvan” Universitetində keçirilən konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açıb, Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***

# “İslam dinində vətənpərvərlik və şəhidlik” mövzusunda konfrans olub



Rektor bildirib ki, Azərbaycanın bütövlüyü uğrunda həyatını qurban verən hər bir şəhidin xatirəsi xalqımız üçün əzizdir. Onların həyatı bugünkü nəsil üçün örnəkdir. Bildirilib ki, 44 günlük Vətən müharibəsində qələbəmizi təmin edən şəhid və qazilərimiz haqq-ədalət, milli birlik yolunun yolçuları kimi daim gələcəyimizi aydınladacaqdır.

İlahiyyat kafedrasının müəllimi Kubra Vəliyeva “Qurani-Kərim”də və hədislərdə Vətən sevgisi və şəhidlik” mövzusunda məruzəsində qeyd edib ki, qazilik və şəhidlik anlayışı məhz İslam dininə xas olan anlayışlardır. Yalnız bu dində şəhidlik ali məqam sayılır və müqəddəs hesab olunur.

Sonra Dinşünaslıq ixtisasının 3-cü kurs tələbəsi Nəzrin Məmmədovanın “İslamda şəhidlik məqamı” adlı çıxışı dinlənilib.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev bildirib ki, sahib olduğumuz müstəqilliyi gələcək nəsillərin rahat yaşaması, xalqını, dövlətini qorumaq, torpaqlarımızı düşməndən azad etmək üçün canından keçən şəhidlərə borcluyuq. Vüqar Babayev 44 gün davam edən İkinci Qarabağ müharibəsində qazanılan qələbəni xatırladıb və bu qələbədə öz qanları ilə imzalarını atan şəhidlərin ruhunu yad edib.

Sonda suallar cavablandırılıb.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

# Yaz ətirli bənövşə

*(esse)*

Elə ki bahar gəlir el-obamıza günəşin şüaları ilə təbiət isinir, torpaq cana gəlir. Bu zaman torpağın altından yamyaşıl bitkilər baş qaldırır, səmaya boylanır. Onlar böyüyür, çiçək açır, əlvan rənglərlə ətrafı gözəlləşdirirlər. Baharın gəlişini müjdələyən çiçəklərin ən sevimlisi bənövşədir. Onun gözəlliyi təbiətə əlvanlıq qatır, ruhumuzda, qəlbimizdə xoş hisslər oyadır. Bir də görürsən, çəmənlərdən, gül kollarının, daşların arasından boylanır, baxır. İncə, zərif, məsum görünüşü, cazibədar ətri ilə cəlb edir yanından ötənləri. Bir anda sərtləşmiş, buzlaşmış duyğular oyanır, xüsusi sevinc bəxş edilir insana. Mart ayında çiçək açır, iyunda göy, sarı, ağ, çəhrayı, xüsusilə də bənövşəyi rəngi ilə ətrafa xalısını sərir, parlaqlıq saçır. Hər kəs qarşısında ayaq saxlayır, əyilib ondan dərir, əvvəlcə qoxusunu, hərarətini ciyərlərinə çəkir. Bu zaman, sanki qışın yorğunluğu, süstlüyü də bir andaca yox olur. Çöhrədə isti gülüş, təbəssüm yaradır. İstər-istəməz onun gözəlliyi insanı başqa bir aləmə aparır və deyirsən: Bənövşə, sən əlvanlığın, utancaqlığınla zərifliyin, lütf və sədaqətin simvolu, saflıq, təmizlik və məsumluq mücəssəməsisən. Sən Adəm Peyğəmbərin göz yaşından yaranmısan, Əslinin Kərəmə sevdasına şahid olmusan. Ondandır ki, bəzən kədərli, duyğulu, boynubükük halın? Məncə, havadandır, günəşli havalarda başın dikdir, elə ki havalar yağışlı, mülayim keçdi, çiçəklərin büzüşür, ləçəklərinə ağ rəngli ləkələr düşür. Lakin o halında da incə görünüşün, cazibədar ətrin qalır. Ondandır ki, təbiət möcüzəsi arıları özünə cəlb edirsən. Şəninə şeirlər yazılır, gözəlliyinə nəğmələr qoşulur. Ustad Aşıq Qurbani əbəs yerə demir ki;

*Tanrı səni xoş camala yetirmiş,*
*Səni görən aşıq ağlın itirmiş,*
*Mələklərmi dərmiş, göydən gətirmiş,*
*Heyif ki, dərirlər az bənövşəni.*



Füsunkar təbiətli Ordubadın yamyaşıl bağlarını, Şahbuzun yaylaqlarını bəzəyirsən, əzəməti ilə diqqəti cəlb edən Haçadağı öz rənginə boyayırsan. Sən, göylərin ərməğanı, könüllərin sultanısan. Sənə digər yaz gülləri – novruzgülü, nərgiz də qonşuluq edir. Zərif qoxun, boynubüküklüyünün arxasındakı məğrurluğun ilə bütün insanların sevimlisisən. Uşaqlar, uşaqlaşan böyüklər də sənə heyran qalır, çiçəklərindən özlərinə tac toxuyurlar. Əllərdə bənövşə dəstələri, üzlərdə gülüş rəqs edir, mahnı oxuyur, əylənirlər. Yaz fəslinin gözəlliyi də elə bunda deyilmi? Uşaqlar doymaq bilmədən “Bənövşə – bəndə düşə, bizdən sizə kim düşə?” oynayır, əylənirlər. Bənövşə, gözəlliyinlə yanaşı, faydanla da seçilirsən. Toxumun, kökün, yarpağın və çiçəklərin müxtəlif xəstəliklərin dərmanıdır. Ünün, avazın quşlara da yetir. Sənin ətrin, onların nəğmələri yaza ayrı bir gözəllik qatır. Bu il özündə, sanki torpaqlarımızın azadlığı və müstəqilliyi uğrunda canını qurban vermiş şəhidlərimizin ətrini saxlayırsan. Təsadüfi deyil ki, şəhidlərimizin xatirəsinin və qəhrəman ordumuzun zəfər simvolu sayılan xarı bülbülün nişanəsində də bənövşəyi rəng öz əksini tapır. Qırmızı və mavi rəngin birliyindən yaranan bu rəng özgüvən, inam, sadəlik, dözümlülük rəmzidir. Bu gün sevincliyəm ki, işğaldan azad edilən torpaqlarımızda xarı bülbüllə yanaşı, bənövşələr də bitəcək. Doğma Qarabağımızdan bənövşə ətri gələcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:** Notariuslar tərəfindən göstərilən hansı xidmətlərə və notariat hərəkətlərinə görə dövlət rüsumu tutulur?*

**Cavab:** Notariuslar və dövlət orqanları tərəfindən daşınmaz əmlakın və ya mülkiyyətində daşınmaz əmlak olan müəssisədəki payın özgəninkiləşdirilməsi və yaşayış sahələrinin müvəqqəti istifadəyə verilməsi barədə müqavilələrin, yaşayış evlərinin tikintisi üçün torpaq sahələrinin müddətsiz istifadəyə verilməsi haqqında müqavilələrin, nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi müqavilələrinin, kredit müqavilələrinin təminatı kimi bağlanılan girov (ipoteka) müqavilələrinin təsdiqinə, vərəsəlik hüququ haqqında şəhadətnamələrin verilməsinə, vəsiyyətnamələrin təsdiqinə, nəqliyyat vasitələrinin özgəninkiləşdirilməsi və ona sərəncam verilməsi, həmçinin nəqliyyat vasitələrindən istifadə edilməsi ilə bağlı verilən etibarnamələrin təsdiqinə, notariat qaydasında təsdiq edilmiş sənədlərin təkrarən verilməsinə (dublikat), sənədlərin bir dildən başqa dilə tərcüməsinin düzgünlüyünün təsdiqinə, sənədlərdən surət və çıxarışların düzgünlüyünün təsdiqinə, vətəndaşla fotoşəkildəki şəxsin eyniliyinin təsdiqinə, sənədlərdəki imzanın həqiqiliyinin, həmçinin tərcüməçinin imzasının həqiqiliyinin təsdiqinə, notariat fəaliyyəti ilə məşğul olmaq üçün şəhadətnamənin verilməsinə, onun müddətinin uzadılmasına və digər notariat hərəkətlərinə görə dövlət rüsumu tutulur.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

*İtmişdir*

Şahbuz rayonu, Mahmudoba kəndində yaşamış Əliyev İbadət Əmrah oğlunun adına verilmiş JN-141A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Quliyeva Sənəm Hüseyn qızının Naxçıvan şəhəri 60-cı məhəllədə adına olan 83 nömrəli evin 12342 nömrəli torpaq sənədi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 287